# Fərdi kompüterin yaranma tarixi

**Stiv Voznyak** 70-ci illərin ortalarında tipik texno-qik (texnika, kompüter detalları ilə maraqlanan) idi. O, gündüzlər **"Hewlett Packard"** da işləyir, gecələr isə Altair kimi kompüter konstruksiyalarının üzərində çalışırdı. Günlərin birində **Stiv Voznyaka** aydın oldu ki, əsas kompüter detalları (hissələri) o qədər ucuzlaşıb ki aylıq maaş ilə kompüter üçün lazım olanları (hissə, qurğu) əldə etmək olar. O, ideyasını həyata keçirmək üçün işə dostu **Stiv Cobsu** da qoşdu. Onlar bütün boş vaxtlarını əllərində lehimləyici kompüter arxasında qarajda keçirirdilər.



Sağda: Stiv Voznyak (Stephen Wozniak). Solda: Stiv Cobs (Steve Jobs).

1976-cı ilin əvvəlində artıq nəticə var idi: **Apple 1** - 4kb əməli yaddaş, 1Mhz prosessor - MOS 6502, ağac korpus, klaviatura.



| Apple 1 |
|---|
| **Tipi** |
| Fərdi kompüter |
| **Prosessor** |
| Mos 6502 1 MHz tezlik |
| **Yaddaş** |
| 4 Kb əməli yaddaş, 8 və ya 48 Kbayta kimi artırmaq mümkün idi. |




MOS Technology 6502

Baxmayaraq ki, **Stiv Voznyak** kompüteri özünə yığmışdı, lakin dostu **Cobs** onu kompüteri satmağa inandıra bildi. Nəticədə 200 ədəd əl vasitəsilə yığılmış **Apple** kompüterinin hər biri 666,66 dollara satılmışdı. **Apple 1** işlək vəziyyətdə satılan ilk fərdi kompüter idi.




1976-cı il aprelin 1-i. Apple kompüteri.

1977-ci ilin aprelin 17-də dostlar **(Stiv Voznyak və Stiv Cobs)** ilk amerikan kompüter yarmarkasında yeni model - **"Apple 2"**-ni təqdim etdilər.

Müasir fərdi kompüterin ümumi görünüşü:



Fərdi kompüter (Personal computer)

Fərdi kompüterlərin əsas hissələri aşağıdakılardır:

- Sistem bloku;
- Monitor və ya displey;
- Klaviatura.